# "QU QUŞUNUN NƏĞMƏSİ KİMİ..."

**Ağacəfər Həsənlinin imzası oxuculara daha çox şair kimi bəllidi. Doğrudur, o, ixtisasca jurnalistdir, uzun müddət də mətbuatda çalışıb. Hələ Sovet dönəmində onun elə "Sovet kəndi" qəzetində, sonra müstəqilliyimizin ilk illərində "Azərbaycan" qəzetində ardıcıl çıxışları yəqin ki, bu imzası izləyənlərin yaddaşında qalıbdı.**




Təbii ki, insan özünə bir sənəti, bir peşəni seçəndə onu özü ilə olduğu hər yerə daşıyıb aparır. Söhbət burda kəçici, külüngü, malanı aparmaqdan getmir. Burda söhbət o sənətə sevgini, o sənətə bağlantını ürəkdə aparmaqdan gedir. Bax, bu mənada Ağacəfər müəllim də poeziya ilə yanaşı, publisistikanı da özü ilə gəzdiyi, gördüyü hər yerə aparır. Şeirlə qoşa qanad kimi hərlənir onunla publisistika da hər yerdə

Bu günlərdə söz-sözü çəkdi və heç bilmirəm necə oldusa Lerikdən, bu yerlərin indiki havasından, mənzərəsindən söhbət düşdü. Və söhbət əsnasında biz Lerikdə yaşayıb yaradan Əməkdar jurnalist Həmzə Vəlməmmədovu da xatırladıq. Ağacfər müəllim vurğuladı ki, Həmzə müəllimin 75 yaşı ilə bağlı bir yazı da yazmışam. Onunla yaxşı səmimi münasibətlərim olub və bu gün də davam edir. Sonra əlavə etdi ki, publisist yazılarından ibarət kitabım da elə bu günlərdə işıq üzü görüb

Mən Ağacəfər Həsənlinin yeni kitabı ilə bağlı bilgisini eşidən kimi maraqla üzünə baxdım. Şair məni göydə anladı. Çox qısa bir zamandan sonra "Qu quşunun nəğməsi kimi " artıq məndə idi. Vərəqlədim kitabı. Burada işıq üzü görən yazılarn bir çoxu elə ilk öncə "Ədalət" qəzetində çap olunub. Elə bu publisist yazılar ölkənin ən populyar qəzetlərində tirajlanıb. Təbii ki, "Ədalət"də çıxan yazıları mən oxumuşdum. Ona görə də kitab mənə bir az da maraqlı gəldi. Bir-bir səhifələri çevirdikcə burda bir çoxlarının şəxsən və yaxud mətbuatda tanıdığım adlar, ünvanlar diqqətimi çəkdi. Və qeyri-ixtiyari olaraq anlayıram ki, bu kitabdakı yazıların coğrafiyası geniş və əhatəlidir. Və onların arasında müxtəlif peşə, sənət adamları var. Tutaq ki, Ağacəfər Həsənli "Qələm adamının həyat dastanı"nı Həmzə Vəlməmmədova, jurnalist həmkarına ithaf edibsə, "Tale ortağım və nəsil daşım" yazısını dəyərli şairimiz Adil Cəmilə, ""Vaxtın dirilt"mək cəhdi" məqaləsi Elşad Cəfərliyə, "Obrazların şəkli" şair Balayar Sadiqə, "Çağdaş nəslimizin baş romanı" isə xalq yazıçısı Elçinə, bu sıradan Əjdər Ola, Nizami Göydərəliyə ünvanlanan bir-birindən maraqlı yazılar kitabı həm oxunaqlı edib, həm də samballı. Ümumiyyətlə, kitabda hüquq-mühafizə orqanlarında çalışan dəyərli insanlarımız, eləcə də ölkədən kənarda yaşayan müxtəlif sənətlərin sahibi olan həmyerlilərimiz barəisndə də Ağacəfər müəllimin özünəməxsus üslubda yazdığı yazıları yer alıbdı. Kitab iki fəsildən ibarətdi. Birinci fəsil "portret cizgilər", ikinci fəsil isə "rəylər, müsahibələr, təəssüratlar, qeydlər" adlanır. düşünürəm ki, "Təknur" nəşriyyatında işıq üzü görmüş 276 səhifəlik bu kitab Ağacəfər Həsənlinin özünəməxsus publisistikasını oxuculara sevdirəcək.

**Əbülfət MƏDƏTOĞLU**